Ədəbiyyat QƏZETİ
31 iyul / 2021

# Fəxri diplom sahibinə təqdim olundu



XX əsr Azərbaycan ədəbiyyatının "altmışıncılar" adlanan yenilikçi dalğasının nümayəndələrindən biri olan görkəmli yazıçı, əməkdar jurnalist Qərib Mehdinin bu il 85 yaşı tamam olub. Yubileyinə 50-yə yaxın kitabla gələn, bədii və publisistik yaradıcılığına görə bir sıra respublika və beynəlxalq mükafatlar laureatı olan Qərib Mehdi Azərbaycan Yazıçılar Birliyi tərəfindən yubileyi münasibətilə Fəxri diplomla mükafatlandırılmışdır.

Mükafatın təqdimat mərasimi Azərbaycan Yazıçılar Birliyi Gəncə Bölməsində keçirilmiş, mərasimi bölmənin sədri Xəzangül açmış, yazıçıya Fəxri diplomu AYB idarə heyəti adından Birliyin şöbə müdiri şair Qəşəm Nəcəfzadə təqdim etmişdir.

Tədbirdə çıxış edən şair və yazıçılar: Xəzangül, Aləmzər Əlizadə, Qəşəm Nəcəfzadə, Ümbülbanu, İnqilab İsaq, Ramiz Təmkin, sənətşünas Anar Bürcəliyev, tənqidçi Firəngiz İdrisqızı, ədəbiyyat həvəskarı Eldar İsayev və başqaları Qərib Mehdi sənətinin böyüklüyündən, onun yaradıcılığının Azərbaycan ədəbiyyatında öz bədii siqləti, yüksək ictimai məzmunu ilə mühüm yer tutmasından, həm də yaradıcısı olduğu "İlham" Ədəbi Birliyi vasitəsilə Azərbaycan ədəbiyyatına Xəzangül, Nizami Aydın, Qəşəm Nəcəfzadə, Xosrov Natil, Musa Urud, Sərvaz Hüseynoğlu, Valeh Bahaduroğlu, İnqilab İsaq, Fərruxə Umarova və onlarca başqa istedadlı yazıçı və şairlər nəsli bəxş etməsinə görə daha yüksək mükafatlara layiq olmasından bəhs etmişlər.

Sonda yubilyar Qərib Mehdi mükafata və təbriklərə görə təşəkkürünü bildirmiş və yaradıcılıq planlarından danışmışdır.

*Firəngiz İSMAYILOVA*